

*Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır*


# ŞƏRQ qapısı

Qəzet 1921-ci ildən çıxır

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 35 (21.445)

23 fevral 2016-cı il, çərşənbə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiyməti 20 qəpik


## A.Ə.Ruşanovun Naxçıvan Dövlət Texniki Kollecinin direktoru təyin edilməsi haqqında

## Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin Sərəncamı

Naxçıvan Muxtar Respublikası Konstitusiyasının 5-ci maddəsinin II hissəsinin 22-ci bəndini rəhbər tutaraq **qərara alıram:**

Asəf Əyyub oğlu Ruşanov Naxçıvan Dövlət Texniki Kollecinin direktoru təyin edilsin.

**Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri** **Vasif TALIBOV**

*Naxçıvan şəhəri, 22 fevral 2016-cı il*

## "Dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi" mövzusunda seminar keçirilib

***Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyada 57 dövlət orqanı nümayəndəsinin iştirakı ilə "Dövlət qulluqçularının xidməti fəaliyyətinin qiymətləndirilməsi" mövzusunda seminar keçirilib.***

Seminarda Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyanın sədri İsmayıl Qəribli çıxış edərək bildirib ki, "Dövlət qulluğu haqqında" Azərbaycan Respublikası Qanununun 30-1-ci maddəsinə əsasən, inzibati vəzifə tutan dövlət qulluqçularının xidməti fəaliyyəti qiymətləndirilir. Komissiya qeyd olunan normanın Naxçıvan Muxtar Respublikasında icrasını təmin etmək məqsədilə "Naxçıvan Muxtar Respublikasında dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi Qaydaları"nı təsdiq edib. Qaydalara əsasən dövlət qulluqçusunun yanvar ayının 1-dən dekabr ayının 31-dək olan xidməti fəaliyyət dövrü təqvim ilinin sonunda qiymətləndirilir. Dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi onun tabe olduğu rəhbər tərəfindən həyata keçirilir. Dövlət orqanı üzrə qiymətləndirilmənin nəticələrinə görə yekun hesabat mart ayının 1-dək Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədri yanında Dövlət Qulluğu Məsələləri üzrə Komissiyaya təqdim edilir.

Qeyd edilib ki, dövlət qulluqçusunun xidməti fəaliyyətinin meyarlara görə qiymətləndirilməsi məqsədilə rəhbər tərəfindən hər ilin yanvar ayında dövlət qulluqçusu qarşısında təqvim ili ərzində icra etməli olduğu mühüm tapşırıqlar (hədəflər) qoyulur. Dövlət qulluqçusunun xidməti fəaliyyəti peşə bilikləri, xidməti vəzifələrə münasibət, təhlil aparmaq, problem həll etmək və qərar vermək bacarığı, yaradıcılıq və təşəbbüskarlıq, əmək intizamı, iş təcrübəsi və onu bölüşmə, kollektivdə işləmək bacarığı, ünsiyyət, işçilərarası münasibətlər meyarlarına əsasən qiymətləndirilir.

Komissiya sədri deyib ki, qiymət 5 və 4.6 qiymətləri arasında olduqda (əla) – dövlət qulluqçusu bu qiymətlə iki il ardıcıl olaraq qiymətləndirilərsə və müvafiq vakant vəzifə mövcud olarsa, onun yuxarı vəzifəyə keçirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş tədbirlərin görülməsi, qanunvericiliyə uyğun olaraq onun barəsində həvəsləndirmə tədbirlərinin görülməsi, rəhbər vəzifələrin tutulması üçün ehtiyat kadrlar siyahısına daxil edilməsi nəzərdə tutulub. Qiymət 4.5 və 3.6 qiymətləri arasında olduqda (yaxşı) – dövlət qulluqçusu bu qiymətlə dörd il ardıcıl olaraq qiymətləndirilərsə və müvafiq vakant vəzifə mövcud olarsa, onun yuxarı vəzifəyə keçirilməsi üçün qanunvericiliklə müəyyən edilmiş tədbirlərin görülməsi, bu qiymətlə üç il ardıcıl olaraq qiymətləndirilərsə, qanunvericiliyə uyğun olaraq onun barəsində həvəsləndirmə tədbirlərinin görülməsi, dövlət qulluqçusunun iş fəaliyyətinin və bacarıqlarının daha da təkmilləşdirilməsi məqsədilə müvafiq tədbirlərin görülməsi vacibdir. Qiymət 3.5 və 2.6 qiymətlər arasında olduqda (kafi) – dövlət qulluqçusunun iş fəaliyyətinin yaxşılaşdırılması və bacarıqlarının təkmilləşdirilməsi məqsədilə müvafiq tədbirlərin görülməsinə ehtiyac var. Qiymət 2.5 və daha aşağı olduqda (qeyri-kafi) – bu qiymət növbəti qiymətləndirilmə zamanı dəyişməzsə, dövlət qulluqçusunun həmin təsnifatdan olan, lakin vəzifə maaşı aşağı olan digər vəzifəyə keçirilməsi və bu qiymət yenidən növbəti qiymətləndirilmə zamanı dəyişməzsə, onun aşağı təsnifatdan olan inzibati vəzifəyə keçirilməsi lazımdır.

Seminarda komissiyanın baş məsləhətçi-hüquqşünası Türkan Gülməmmədli hazırlanmış slaydlarla dövlət qulluqçusunun xidməti fəaliyyətinin qiymətləndirilməsi qaydalarını izah edib.

Sonda seminar iştirakçılarını maraqlandıran suallar cavablandırılıb.

***Bu münasibətlə keçirilən tədbiri Müvəkkil Ülkər Bayramova açmışdır. Qeyd edilmişdir ki, 1995-ci ildə ümumxalq səsverməsi ilə qəbul edilən ilk milli Konstitusiyamız Azərbaycan Respublikasında demokratik hüquqi islahatların keçirilməsində əsas hüquqi baza olmuşdur. Bu mühüm tarixi əhəmiyyətə malik sənəd ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarına lazımi təminatlar yaratmaqla hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun möhkəm təməlini təşkil etmiş, dövrün tələblərinə cavab verən bir sıra yeni qanunvericilik aktları hazırlanaraq qəbul edilmişdir.***

## Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkili təsisatının yaradılmasının 10 illiyi qeyd olunmuşdur

Bildirilmişdir ki, hüquqi, demokratik dövlət quruculuğunun ən mühüm amili olan insan hüquq və azadlıqlarının müdafiəsinin təminatı ilə bağlı ölkəmizdə həyata keçirilən islahatlar Azərbaycan Respublikasının ayrılmaz tərkib hissəsi olan Naxçıvan Muxtar Respublikasında da davam etdirilməkdədir. İnsan hüquqları və azadlıqlarının təminatı və etibarlı müdafiəsi istiqamətində görülən ən mühüm işlərdən biri də muxtar respublikada insan hüquqlarının müdafiəsi üzrə orqanlar sistemində yeni və səmərəli müdafiə mexanizmi olan Müvəkkil təsisatının yaradılması olmuşdur.

Vurğulanmışdır ki, bu gün Müvəkkil təsisatı öz fəaliyyətini pozulmuş insan hüquqlarının bərpası, insan hüquq və azadlıqlarının pozulmasının qarşısının alınması, hüquqi-maarifləndirmə işinin təşkili, o cümlədən maarifləndirici vəsaitlərin hazırlanması, insan hüquqlarının təbliği və müdafiəsi sahəsində dövlət və yerliözünüidarəetmə orqanları, həmçinin kütləvi informasiya vasitələri ilə əməkdaşlığın daha da inkişaf etdirilməsi istiqamətində qurmuşdur.

Tədbirdə Müvəkkil təsisatının Hüquqi-maarifləndirmə, elmi-analitik, informasiya və ictimaiyyətlə əlaqələr şöbəsinin baş məsləhətçisi Sadiq Babayevin "Müvəkkil təsisatı insan hüquqlarının səmərəli müdafiə mexanizmi kimi" mövzusunda çıxışı olmuşdur.

Sonra Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatı rəhbərinin müavini, Qanunçuluq və hüquq-mühafizə orqanları ilə iş şöbəsinin müdiri Cəlil Rüstəmov çıxış edərək demişdir ki, ümummilli lider Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə ədalət mühakiməsinin təmin olunması, ali prinsip olan insan və vətəndaş hüquqlarının qorunması həmişə diqqət mərkəzində saxlanılmışdır. Bu diqqətin nəticəsidir ki, məhkəmə-hüquq sistemində islahatlar keçirilmiş, ölkəmizdə, o cümlədən Naxçıvan Muxtar Respublikasında İnsan Hüquqları üzrə Müvəkkil təsisatı yaradılmış və fəaliyyətlərinin təmin olunması üçün tədbirlər görülmüşdür.

Müvəkkil təsisatı üçüncü çağırış Naxçıvan Muxtar Respublikası Ali Məclisinin 2006-cı il 20 fevral tarixli ikinci sessiyasında "Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında" Qanunun qəbul edilməsi ilə yaradılmışdır.

"Müvəkkil təsisatı ötən dövrdə səmərəli hüquqi təsisat kimi formalaşmış, muxtar respublikanın dövlət orqanları sistemində özünəməxsus yer tutmuşdur", – deyən Cəlil Rüstəmov bildirmişdir ki, təsisat muxtar respublikanın dövlət və yerliözünüidarə orqanları, vəzifəli şəxslər tərəfindən pozulan insan hüquqları və azadlıqlarının bərpa edilməsi və qarşısının alınması sahəsində fəaliyyət göstərir. Müvəkkilin müstəqilliyinin təminatı qanunla qorunur. Ümumilikdə isə Müvəkkil institutu insan hüquq və azadlıqlarına əməl olunması sahəsində qarşıya qoyulan vəzifələrin icrasında mühüm rol oynayır.

Muxtar respublikada bütün dövlət orqanları qayğı ilə əhatə olunmuşdur. Bu qayğının nəticəsidir ki, İnsan Hüquqları üzrə Müvəkkil təsisatı üçün də müasir iş şəraiti yaradılmışdır. Eyni zamanda təsisatın işçilərinin əməyinin qiymətləndirilməsi də diqqət mərkəzində saxlanılmışdır. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 19 fevral tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkili Aparatı işçilərinin bir qrupunun təltif olunması bu orqanın fəaliyyətinə göstərilən diqqətin daha bir ifadəsidir.

Vurğulanmışdır ki, cəmiyyət inkişaf etdikcə insan və vətəndaşların hüquqları daha da genişlənir, inkişaf edir, müasirləşir və qarşıya yeni vəzifələr qoyulur.

Bu vəzifələrin gələcəkdə də peşəkarlıqla yerinə yetiriləcəyinə əminliyini bildirən Cəlil Rüstəmov Naxçıvan Muxtar Respublikası İnsan Hüquqları üzrə Müvəkkili təsisatının 10 illiyi münasibətilə kollektivi təbrik etmiş, Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin "Rəşadətli əməyə görə" nişanı ilə təltif haqqında" Sərəncamını oxumuş və nişanları təltif olunanlara təqdim etmişdir.

**Xəbərlər şöbəsi**

## Naxçıvan-Batumi-Naxçıvan avtobus marşrutu fəaliyyətə başlayıb

***Naxçıvan Muxtar Respublikasının hərtərəfli inkişafı istiqamətində həyata keçirilən tədbirlər bütün sahələri əhatə edir. Bunun nəticəsidir ki, muxtar respublikada nəqliyyat infrastrukturu da özünün yeni inkişaf mərhələsinə qədəm qoyub, avtomobil yolları yenidən qurulub, sərnişin və yük daşınması sahəsində uğurlu nəticələrə nail olunub. Belə uğurlardan biri də Naxçıvan-Batumi-Naxçıvan beynəlxalq avtobus marşrutunun fəaliyyətə başlamasıdır.***





Fevralın 20-də Naxçıvan şəhərindən hərəkət edən ilk sərnişin avtobusu elə həmin gün Gürcüstanın Acarıstan Muxtar Respublikasının paytaxtı Batumi şəhərinə çatıb. Batumi şəhərində sərnişinləri Acarıstan Muxtar Respublikası Ali Sovetinin nümayəndəsi İrakli Berin, Azərbaycan Respublikasının Batumi şəhərindəki Baş konsulu Rəşad İsmayılov və Batumi şəhərində fəaliyyət göstərən kütləvi informasiya vasitələrinin nümayəndələri qarşılayıblar. Sərnişinlərə ilk səfər münasibətilə Batumi Turizm Departamentinin nümayəndələri tərəfindən hədiyyələr təqdim olunub.

Acarıstan Muxtar Respublikası Ali Sovetinin nümayəndəsi İrakli Berin "Şərq qapısı" qəzetinə verdiyi müsahibədə bildirib ki, yeni avtobus marşrutu xəttinin istifadəyə verilməsi hər iki muxtar respublika arasında müxtəlif sahələr üzrə əlaqələrin, o cümlədən qarşılıqlı olaraq turizmin inkişafına öz töhfəsini verəcək.

Azərbaycan Respublikasının Batumi şəhərindəki Baş konsulu Rəşad İsmayılov isə qeyd edib ki, tarixi kökləri olan Acarıstan-Naxçıvan münasibətləri son illər qarşılıqlı rəsmi səfərlərlə daha da inkişaf etdirilib. Hər iki muxtar respublikanın hökumətləri arasında qarşılıqlı razılaşmaya əsasən müxtəlif sahələrin inkişafı üçün əsaslı zəmin yaradılıb. Yeni fəaliyyətə başlayan Naxçıvan-Batumi-Naxçıvan avtobus marşrutu da bu əlaqələrin yüksələn xətt üzrə davam etdiyini göstərir.

Naxçıvan və Acarıstan arasındakı əlaqələrin inkişafına öz töhfəsini verəcək yeni avtobus marşrutu Batumi şəhərinin sakinləri tərəfindən də sevinclə qarşılanıb. Batumi şəhərinin sakinləri bunun qarşılıqlı dostluq əlaqələrinin möhkəmlənməsində, hər iki regionun tanınmasında əhəmiyyətli rol oynayacağını bildirdilər.

Qeyd edək ki, yeni avtobus marşrutunun fəaliyyətə başlaması "Azərbaycan Respublikasının Naxçıvan və Gürcüstan Respublikasının Batumi şəhərləri arasında Qardaşlıq və Əməkdaşlığa dair Memorandum"a əsasən həyata keçirilir. Sərnişin avtobusu Türkiyə Respublikasının ərazisindən keçməklə Batumiyə gedir. Adıçəkilən marşrut xətti üzrə bir tərəfə gediş haqqı 27 manatdır. 5 yaşınadək uşaqlara bilet alınmır. 5 yaşından 10 yaşınadək uşaqlara isə bilet 50 faiz güzəştlə satılır.

**Səbuhi HƏSƏNOV**



# İqtisadiyyat





***Muxtar respublikamızda əhalinin ərzaq məhsulları ilə etibarlı təminatı istiqamətində həyata keçirilən tədbirlərin davamlı xarakter alması regionumuza digər yerlərdən daxil olan, baha qiymətə başa gələn, mənşəyi bilinməyən məhsulların qarşısının alınmasında mühüm əhəmiyyət daşıyır. Ayrı-ayrı vaxtlarda qəbul edilmiş bəzi dövlət proqramları da bu məqsədə xidmət edir. Kartofçuluğun, meyvə və tərəvəzçiliyin inkişafı ilə bağlı icrası müvəffəqiyyətlə başa çatan dövlət proqramları bu sahədə xeyli uğurlar qazanılmasına stimul olub. “2012-2015-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı”ndan irəli gələn vəzifələrin yerinə yetirilməsi dövründə Akademik Həsən Əliyev adına “Araz” Elm-İstehsalat Birliyinin Ordubad dayaq məntəqəsində muxtar respublikanın iqlim-torpaq şəraitinə uyğunlaşmış, yüksək məhsuldarlığa malik meyvə sortlarının genetik fondu toplanılıb, AMEA Naxçıvan Bölməsinin Bioresurslar İnstitutunun genofond bağına yeni sortlar gətirilərək əkilib.***

## Yeni dövlət proqramı, yeni perspektivlər

Meyvəçiliyin inkişafına maliyyə dəstəyi davam etdirilərək Sahibkarlığa Kömək Fondunun vəsaiti hesabına müvəkkil kredit təşkilatları tərəfindən bağçılığın inkişafı məqsədilə 63 layihə üzrə 1 milyon 363 min manatdan çox kredit verilib.

Muxtar respublikanın torpaq, iqlim və relyef xüsusiyyətlərinə asan uyğunlaşan meyvə sortlarından ibarət tingçilik sahələri yaradılıb, proqramın icrası dövründə muxtar respublika üzrə 751 hektar ərazidə 660 minə yaxın ting əkilib.

Əhalinin qış aylarında faraş tərəvəz məhsullarına olan tələbatının ödənilməsi üçün müasir istixana komplekslərinin qurulması və mövcud sahələrin genişləndirilməsi istiqamətində də xeyli iş görülüb, bu sahə ilə məşğul olanlara 3 milyon 840 min manat həcmində dövlət maliyyə dəstəyi göstərilib. Hazırda muxtar respublikada ümumi sahəsi 100 min kvadratmetrə yaxın olan istixana kompleksləri əhalinin tərəvəz məhsullarına olan tələbatının ödənilməsində mühüm rola malikdir.

Bəhs olunan dövrdə meyvə və tərəvəz məhsullarının saxlanması üçün soyuducu anbarların yaradılması da diqqət mərkəzində saxlanılıb, dövlət maliyyə dəstəyi və şəxsi vəsait hesabına hüquqi və fiziki şəxslər tərəfindən ümumi tutumu 12730 ton olan 22 soyuducu anbar istifadəyə verilib.

Kənd təsərrüfatının inkişaf etdirilməsi məqsədilə həyata keçirilən tədbirlərin nəticəsidir ki, bu gün muxtar respublika əhalisinin meyvə-tərəvəz məhsullarına olan tələbatı, əsasən, yerli istehsal hesabına ödənilir.

Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2016-cı il 8 fevral tarixli Sərəncamı ilə təsdiq olunmuş “2016-2020-ci illərdə Naxçıvan Muxtar Respublikasında meyvəçiliyin və tərəvəzçiliyin inkişafı üzrə Dövlət Proqramı” bundan əvvəlki proqramda nəzərdə tutulmuş vəzifələrin daha geniş həcmdə yerinə yetirilməsinə imkan verəcək.

Sərəncamda qeyd olunur ki, yeni qəbul edilən dövlət proqramının əsas məqsədi muxtar respublikanın meyvə və tərəvəz məhsullarına olan tələbatının yerli istehsal hesabına ödənilməsi, kənardan gətirilən sort meyvə tinglərinin, yerli şəraitə uyğun məhsuldar sortların əkilməsi, müasir standartlara cavab verən texnologiyalar əsasında yeni meyvə və tərəvəz emalı müəssisələrinin yaradılması, mövcud torpaq sahələrindən daha səmərəli istifadə olunması, kənd əhalisinin məşğulluğunun artırılması, sahibkarlığın stimullaşdırılması məqsədilə bu sahəyə dövlət dəstəyinin, daxili və xarici investisiyaların cəlb edilməsi ilə əlaqədar tədbirlərin həyata keçirilməsidir.

Proqramda vəzifələr də müəyyənləşdirilib. Belə ki, meyvəçilik və tərəvəzçilik sahəsində ixtisaslaşmış təsərrüfatların və ölkələrin təcrübəsinin öyrənilməsi, intensiv inkişaf modelindən istifadə etməklə meyvə və tərəvəz istehsalının həcminin artırılması, muxtar respublikada meyvə və tərəvəz məhsullarının konservləşdirilməsi ilə məşğul olan təsərrüfat subyektlərinə dövlət maliyyə dəstəyinin göstərilməsi nəzərdə tutulub. Bundan başqa, yüksək məhsuldarlığa və keyfiyyət göstəricilərinə malik meyvə tinglərinin və tərəvəz toxumlarının yetişdirilməsi, anbar şəbəkələrinin və saxlanma kameralarının tikintisinin dəstəklənməsi, unudulmuş yerli meyvə-tərəvəz sortlarının bərpa edilməsi, yeni bazarların öyrənilməsi və istehsal olunan meyvə-tərəvəzin ixracının təmin olunması da diqqət mərkəzində saxlanılacaq. Həmçinin texniki servis xidməti, xəstəlik və ziyanvericilərə qarşı mübarizə vasitələri, eləcə də üzvi və mineral gübrələrlə təchizat sahəsində tədbirlərin genişləndirilməsi, yabanı meyvə bitkilərinin emalı sahələrinin yaradılması və bununla da, kənd əhalisinin məşğulluğunun təmin olunması yerinə yetiriləcək vəzifələr sırasındadır.

Proqramın icrasından gözlənilən nəticələr isə ondan ibarətdir ki, muxtar respublika əhalisinin meyvə və tərəvəz məhsullarına olan tələbatının ödənilməsi yerli istehsal hesabına təmin edilsin və tələbatdan artıq mövsümi məhsulların ixracına nail olunsun. Meyvə istehsalının həcmi 62, üzüm istehsalının həcmi 20 min tona çatdırılsın. Əhalinin məşğulluğu artırılsın və kənd əhalisinin sosial rifahının yaxşılaşdırılmasına nail olunsun.

Proqramın yerinə yetirilməsində müxtəlif aidiyyəti qurumlarla yanaşı, Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı və İqtisadiyyat nazirlikləri qarşısında da mühüm vəzifələr qoyulub. Bu günlərdə həmin nazirliklərlə əlaqə saxladıq. Kənd Təsərrüfatı Nazirliyindən aldığımız məlumata görə, nazirlik tərəfindən proqramın icrası ilə bağlı hazırlanmış tədbirlər planına əsasən, yerlərdə torpaq mülkiyyətçiləri, sahibkarlarla maarifləndirici tədbirlərin, səyyar müşavirələrin keçirilməsi nəzərdə tutulub. Belə tədbir və müşavirələrdə kənd təsərrüfatı məhsullarının istehsalı ilə məşğul olanlara metodik köməkliklər göstəriləcək, müxtəlif bitkilərin elmi əsaslarla əkilib-becərilməsi üçün onlara bukletlər paylanacaq. Təcrübədə sınaqdan çıxmış qədim əkinçilik üsullarının müasir texnologiyalarla uzlaşdırılması, əkin sahələrində təcrübi yolla bu üsulların öyrədilməsi həyata keçiriləcək.

Nazirlik tərəfindən meyvə-tərəvəz və onlardan hazırlanmış məhsulların keyfiyyəti nəzarətdə saxlanılacaq. Kənd təsərrüfatı məhsullarının istehsalında üzvi və qeyri-üzvi gübrələrin keyfiyyət göstəricilərinə, toxumların və tingçilik məhsullarının müəyyən olunmuş tələblərə cavab verməsinə nəzarət gücləndiriləcək. Kənd təsərrüfatı məhsulları yarmarkalarının təşkili davam etdiriləcək, ixtisaslaşmış meyvə və tərəvəzçilik təsərrüfatlarının, müasir emal, qablaşdırma müəssisələrinin yaradılmasına və ixracyönümlü məhsul istehsal edən sahibkarlara maliyyə dəstəyi göstəriləcək. Sığorta bazarında kənd təsərrüfatının xüsusi çəkisinin artırılması istiqamətində maarifləndirici tədbirlər davam etdiriləcək. Rayon mərkəzlərində və kənd yaşayış məntəqələrində meyvəqurutma istehsalı sahələrinin yaradılması təmin olunacaq.

İqtisadiyyat Nazirliyindən bildirdilər ki, proqramın icrası istiqamətində kənd təsərrüfatı məhsulları istehsalçıları üçün əkin sahələrinin genişləndirilməsi məqsədilə maarifləndirici tədbirlərin həyata keçirilməsi və onlara dövlət maliyyə dəstəyinin göstərilməsi nəzərdə tutulub.

Meyvə və tərəvəz məhsullarının saxlanması üçün soyuducu anbarların, tələbatdan artıq istehsal olunmuş kənd təsərrüfatı məhsullarının soyuducu anbarlara tədarükünün təşviqi və yeni anbarların yaradılması, daxili bazarda idxal məhsullarının keyfiyyətinə nəzarət daha da gücləndiriləcək.

Üzərində istehsal və son istifadə müddəti, istehsalçısı və məhsulun tərkibi haqqında başa düşülə bilən dildə dolğun məlumat olmayan məhsulların gətirilmə istiqamətlərinin müəyyənləşdirilməsi və qarşısının alınması, gömrük-keçid məntəqələrində idxal edilən tez xarab olan ərzaq məhsullarının daşınması və saxlanması zamanı normativ-texniki sənədlərin tələblərinə uyğunluğuna nəzarətin həyata keçirilməsi məqsədilə idxal olunan meyvə-tərəvəz məhsullarından və konservləşdirilmiş meyvə-tərəvəzlərdən orta nümunələr götürülərək “İstehlak Mallarının Ekspertizası Mərkəzi” MMC-nin beynəlxalq akkreditasiyadan keçirilmiş laboratoriyasında analiz ediləcək.

Məhsul istehsalçılarına lazımi şəraitin yaradılması, həmçinin yerli sənaye müəssisələri və kənd təsərrüfatı məhsullarının istehsalçıları tərəfindən istehsal olunan məhsulların bazar qiymətlərinə nəzarət olunması, ixtisaslaşmış meyvə və tərəvəzçilik təsərrüfatlarının, müasir emal, qablaşdırma müəssisələrinin yaradılması məqsədilə meyvə və tərəvəz məhsullarının konservləşdirilməsi sahəsində araşdırmalar aparılacaq. İqtisadi cəhətdən səmərəli hesab edilən layihələrin maliyyələşdirilməsi, meyvə-tərəvəz məhsullarının ixrac qabiliyyətinin artırılması məqsədilə sahibkarlıq subyektləri ilə birgə variantlar araşdırılacaq.

Muxtar respublikada yeni üzümlüklərin salınması, süfrə və texniki üzüm sortlarının yaradılması məqsədilə iqtisadi əsaslandırılmış yeni layihələrin hazırlanması, sahibkarlara təqdimatının keçirilməsi, üzümçülüklə məşğul olan sahibkarların fəaliyyətinin genişləndirilməsi məqsədilə maarifləndirmə işlərinin aparılması, iqtisadi əsaslandırılmış layihələrə dövlət maliyyə dəstəyinin göstərilməsi, o cümlədən üzümçülük sahələrinə yerli, eləcə də xarici kapitalın cəlb olunması, meyvəqurutma istehsalı sahəsinin yaradılması məqsədilə müasir texnologiyalar ilə təchiz edilmiş və iqtisadi əsaslandırılmış yeni layihələr hazırlanacaq. Müraciət edən sahibkarlara dövlət maliyyə dəstəyinin göstərilməsi davam etdiriləcək.

✍ **Muxtar MƏMMƏDOV**

*İstehsal müəssisələri*

## Qadınlar digər sahələrdə olduğu kimi, özəl sektorda da yüksək nailiyyətlər əldə edirlər

***Bu gün hər bir Azərbaycan qadını həyatımızın bütün sahələrində təmsil olunur, Vətənə, xalqa xidmət edir. Bu, əlbəttə, sevindirici haldır: onlar siyasi arenada da öz sözlərini deyir, cəmiyyəti narahat edən bütün məsələlərə operativ, çevik münasibət bildirirlər. Sözsüz ki, bütün bunlar ölkəmizdə, eləcə də muxtar respublikamızda yaradılan ictimai-siyasi sabitliyin, münbit şəraitin nəticəsidir. Həyatımızın hansı sahəsinə baxsaq, orada qadın əməyinin izlərini görürük. Artıq qadınlarımız sahibkarlıq sahəsində də özlərini sınayırlar.***

Etiraf edək ki, çoxumuz biznesin kişilər tərəfindən idarə edilməsini düşünürük. Ancaq bunu unuduruq ki, istənilən biznesdə uğur qazanmağın əsas motivi qadınlardır. Məşhur Harvard Universiteti tədqiqatçılarının apardığı araşdırmalara görə, istənilən alış prosesində kişilər əldə edəcəyi məhsula, qadınlar isə məhsulla yanaşı, əlavə dəyərlərə də üstünlük verirlər.

Şərur rayonundakı Cəlilkənddə lavaş sexinin sahibkarı olan Rüxsarə Ağayevanın timsalında bu sahədə də qadınlarımızın uğur qazanmasını oxucularımıza çatdırmaq istəyirəm. Bəs kimdir bu xanım? Necə oldu ki, sahibkarlıq fəaliyyətinə başladı? Bu suallarımıza cavab tapmaq üçün kəndə yollandıq. Lavaş sexini tapmaq bizim üçün heç də çətin olmadı.



Çünki Rüxsarə xanımı kənddə müəllim kimi tanıyırlar. O, Düdəngə kənd tam orta məktəbində çalışır. Müəssisənin həyətində bizi qarşılayan Rüxsarə xanımla hal-əhval tuturuq. Söhbətə də o başlayır:

– Təqaüd yaşım yaxınlaşır. Amma bu, o demək deyil ki, işləməyəcəm. Necə ki canım sağlamdır, işləyəcəyəm. Ona görə də özümü sahibkarlıq sahəsində sınamaq istədim. Kəndimizdə kiçik sex qurmaq çoxdankı arzum olub. Niyə kiçik bir sex? Çünki belə istehsal sahələrini idarə etmək və istehsal olunan məhsullara bazar tapmaq asandır. Böyük müəssisələri elektrik enerjisi və digər avadanlıqlarla təmin etmək lazım gəlir ki, bunlar da çox böyük problemlər yaradır. Lakin kiçik sexlərin qurulması, onların çevik idarə formasına keçirilməsi uyğun və sərfəlidir. İndi muxtar respublikamızda əhalinin yerli məhsullara olan tələbatının ödənilməsi diqqət mərkəzində saxlanılır. Sahibkarlığın, o cümlədən kiçik biznesin inkişafı, yeni iş yerlərinin yaradılması məqsədilə məşğulluğun artırılması sahəsində həyata keçirilən uğurlu siyasət qadın sahibkarların da bu proseslərdə yaxından iştirakına şərait yaradıb. Ötən il kəndimizdə lavaş istehsalı müəssisəsi yaratdıq. Dövlət qayğısından bəhrələnən bu müəssisəyə Sahibkarlığa Kömək Fondundan maliyyə dəstəyi göstərildi.

Rüxsarə xanım əlavə edir:

– Lavaşın hazırlanması böyük əmək tələb edir. Bu müqəddəs məhsul, əsasən, oval formada təndirə yapılırdı. Qadınlarımızın bunun üçün çox əziyyət çəkdiklərini görürdüm. Müasir dövrdə, texnologiyanın inkişaf etdiyi bir vaxtda belə bir müəssisə quraraq qadınlarımızı bu əziyyətdən qurtarmaq arzusu məndən əl çəkmirdi. Lavaş mətbəximizin ayrılmaz hissəsidir. Toyda evlənənlərin çiyinləri üzərinə lavaş qoyurlar ki, onlar bolluq, rifah içində yaşasınlar. Mahmud Kaşğarinin məşhur “Divani-lüğət-it türk”, Yusif Balasaqunlunun “Kutatqu bilik” əsərlərində, həmçinin Nizami Gəncəvi, Məhsəti Gəncəvi və Xaqani Şirvaninin kitablarında lavaşın adı çəkilir. Hazırda Azərbaycan lavaşı Qafqaz, Orta Asiya, Asiya, Avropa ölkələri və Amerikada çox məşhurdur.

Əvvəllər müəssisədə 3 nəfər çalışsa da, istehsal artdığından onların sayı 6 nəfərə çatdırılıb. Səmimi bir ailəni xatırladan kollektivin başlıca məqsədi keyfiyyətli məhsul istehsal etməklə alıcıları razı salmaqdan ibarətdir.

Gülər Hüseynova söhbət zamanı dedi: – Çörək bişirmək çox məsuliyyətli işdir. Adamdan bacarıq və səbirlə yanaşı, halallıq da tələb edir. Məhsulu tələbata görə istehsal etdiyimizdən ziyana düşmürük. Bu kiçik müəssisə onlarla ailənin gündəlik çörək məhsuluna olan tələbatını ödəyir.

Söhbətimizə Gülnar İbrahimova qoşulur:

– Dörd aydır ki, bu müəssisədə çalışıram. İşlə təmin olunmaq ailəmiz üçün vacib məsələ idi. Burdan aldığımız maaşla ailəmizi dolandırıram. Çalışırıq ki, keyfiyyətli məhsul istehsal edək. Hələ indiyə kimi alıcılardan şikayət eşitməmişəm. Bizim iş başqa peşələrdən fərqli olaraq daha çox halallıq sevir. Çörəyə haramlıq qatılsa nə Allah bağışlar, nə də ki bəndə.

İstehsal sahəsində çalışanlardan Ülviyyə İbrahimova, Nuranə Sadiqova, Məlahət Hüseynova da işlə təmin olunduqlarına görə minnətdarlıq etdilər.

Lavaş sexində istehsal olunan məhsullardan satıcılar da razılıq edir, alıcılar da. Müəssisədə alıcılarla da həmsöhbət oldum. Şərur şəhər sakini Sənan Əliyev işlətdiyi ərzaq mağazası üçün məhsul almağa gəlib. O dedi: – Təbii ki, gündəlik tələbat malları içərisində insanın ən çox ehtiyac duyduğu lavaş və çörəkdir. Bu mənada, biz də öz tələbatımızı bu müəssisənin istehsal etdiyi məhsullarla ödəyirik. Çünki keyfiyyəti və çəkisi bizi qane edir.

Müəssisəyə tələbat getdikcə artır. Sahibkar artıq ikinövbəli iş rejiminə keçməyi planlaşdırıb.

Müəssisədən ayrılarkən düşünürdüm ki, artıq qadınlarımız da sahibkarlıqda öz sözlərini deməyi bacarırlar. Bu isə Azərbaycan qadınının digər sahələrdə olduğu kimi, özəl sektorda da yüksək nailiyyətlər əldə etdiyini göstərir.

✍ **Sara ƏZİMOVA**



# Qan yaddaşımız



## İnsanlığın düşmənləri

***XIX əsrə qədər türklərin torpaqlarında, türklərin himayəsində təhlükəsiz və firavan yaşamış erməni millətçilərinin "böyük Ermənistan" xülyası və terrorizmi təkcə Azərbaycan türklərini hədəfləməyib. Bu gün məzlum millət obrazı yaradaraq dünyanın hegemon dövlətlərinin himayəsinə sığınan ermənilər hələ XI əsrdə elə eyni tərzdə səlcuqlu türklərinə sığınmışdılar. İnkaredilməz faktdır ki, ermənilərin müxtəlif xarici dövlətlərin, din və məzhəblərin təzyiq və zorakılığından qurtulmaları, özləri müstəqil bir dövlət olmasa da, müstəqil və güclü bir dövlətin daxilində bərabərhüquqlu təbəə kimi yaşamaları məhz türk-səlcuqlar dövründən başlamışdır.***

Erməni millətçiləri 1914-1915-ci illərdə Şərqi Anadolu vilayətlərində türklərlə yanaşı, kürdləri və lazları, 1918-ci ildə Azərbaycan türkləri ilə yanaşı, Qubada ləzgiləri və yəhudiləri, Lənkəranda və ətraf rayonlarda talışları soyqırımına məruz qoymuşlar. Qubadakı soyqırımı faktlarını aşkara çıxaran kütləvi məzarlıqlar, Lənkəranda və ətraf rayonlarda isə bu gün də qalmaqda olan qəbirlər və xalqın yaddaşında tarixləşən hadisələr bunu bir daha sübut edir.

Və Xocalıda... XX əsrdə Xirosima və Xatında törədilmiş soyqırımlardan sonra ən dəhşətli soyqırımı Xocalıda törədilmişdir. Xocalı Azərbaycanın Dağlıq Qarabağ bölgəsinin əsas strateji məntəqələrindən biri sayılırdı. Əsgəran və Xankəndi arasında yerləşən Xocalıda dəmir yolu və hərbi aeroportun olması şəhərin strateji əhəmiyyətini artırırdı. Erməni işğalına qədər Xocalıda yalnız azərbaycanlılar və məshəti (axıska) türkləri məskunlaşmışdılar. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə Ermənistan silahlı qüvvələri Xankəndidə yerləşən 366-cı motoatıcı alayın köməkliyi və iştirakı ilə Xocalı şəhərinə hücum edərək dinc sakinləri qətlə yetirdilər. Xocalıdakı hadisələr o qədər qanlı və dəhşətli olmuşdu ki, erməni terrorçularının törətdikləri hadisələr Amerika Birləşmiş Ştatlarında "İlin ən böyük faciəsi" kimi dəyərləndirilmişdi. Xocalı soyqırımı Xirosima və Xatında törədilmiş soyqırımlardan bir də onunla fərqləndi ki, burada soyqırımı aktı iki xalqa qarşı həyata keçirilmişdir. 26 fevral təkcə azərbaycanlıların deyil, məshəti türklərinin də soyqırımı günüdür.

Statistik və demoqrafik faktların təhlili göstərir ki, 1991-ci ilin oktyabrından blokadada olan Xocalı erməni silahlı dəstələri tərəfindən zəbt ediləndə şəhərdə 86 nəfər məshəti türkü qalmışdı. Bu fakt Human Rights Watch Center (İnsan Hüquqlarına Nəzarət Mərkəzi) tərəfindən açıqlanan hesabatlarda da öz əksini tapmışdır ("Khojali tragedy – an international view", London, 2007).

Xocalıda azərbaycanlılarla bərabər, məshəti türkləri də soyqırımına məruz qalmış, əsir götürülmüş, təcavüzə uğramışdılar. Məshəti türklərindən elə ailələr olmuşdur ki, ailənin, sadəcə, bir üzvü sağ qalmışdı.

Ermənistan silahlı birləşmələri və 366-cı alayın Xocalıda törətdiyi vəhşiliklər BMT Baş Assambleyasının 1948-ci ildə qəbul etdiyi "Soyqırımı siyasətinin qarşısını almaq və belə cinayətlər üstündə cəza haqqında" sazişdə nəzərdə tutulmuş "soyqırımı" anlayışına uyğundur.

Xocalıya hücum zamanı erməni silahlı dəstələrinin dinc əhaliyə qarşı hərəkətləri Cenevrə Konvensiyasına, həmçinin BMT-nin Baş Assambleyasının 10 dekabr 1948-ci ildə qəbul edilmiş Ümumdünya İnsan Haqları Bəyannaməsinin maddələrinə ziddir. Xocalıda ermənilər törətdikləri soyqırımla adıçəkilən bəyannamənin II, III, V, IX, XVII maddələrini kobud şəkildə pozmuşlar. Belə ki, bəyannamə milliyyətindən, dilindən, dinindən asılı olmayaraq, hər kəsin yaşamaq, azadlıq və şəxsi toxunulmazlıq hüququnu təsbit etdiyi halda, erməni silahlı birləşmələri xalqımıza qarşı təkcə fiziki təcavüz deyil, həm də hüquqi təcavüz etmişlər. Bəyannamənin V maddəsi insan ləyaqətini alçaldan, insanlıqdan kənar və qəddar hərəkətləri qadağan etdiyi halda, ermənilər təkcə diri insanlara qarşı deyil, hətta cəsədlərə qarşı belə, alçaldıcı və qəddar hərəkətlər etmişlər. Bu isə Xocalı hadisələrinin təkcə soyqırımı deyil, həm də mənəvi terror olduğunu sübuta yetirir.

Erməni silahlı dəstələrinin hərəkətləri BMT-nin Baş Assambleyasının qəbul etdiyi "Fövqəladə vəziyyətlərdə və hərbi münaqişələr zamanı qadınların və uşaqların müdafiəsi Bəyannaməsi"nə də zidd idi. Çünki soyqırımı aktı zamanı vəhşicəsinə qətlə yetirilən 613 nəfərdən 106 nəfəri qadın, 63 nəfəri uşaq olmuşdur. Xocalı faciəsində 8 ailə bütövlükdə məhv edilmiş, 24 uşaq hər iki valideynini, 130 uşaq isə valideynlərindən birini itirmişdir.

Göründüyü kimi, Xocalıda və ətraf ərazilərdə məskunlaşmış məshəti türkləri də soyqırımına məruz qalmışlar. Bunu unutmamalıyıq və dünyanın da "bilərəkdən və ya bilməyərəkdən" unutmasına imkan verməməliyik.

Bir də unutmamalıyıq ki, Qarabağda dinc əhaliyə qarşı törədilmiş qırğınlar təkcə Xocalı soyqırımı ilə yekunlaşmır. Ermənistan və erməni ultra-millətçiləri tərəfindən süni surətdə törədilmiş Qarabağ münaqişəsi 20 mindən artıq insanın qətlə yetirilməsi, 50 min insanın bu və ya digər dərəcədə fiziki sağlamlığının itirməsi, 1 milyondan çox insanın doğma yurd-yuvalarından qaçqın və məcburi köçkün düşməsi ilə nəticələnmişdir.

Artıq 24 ildir ki, 26 fevralı soyqırımı, hüzn və matəm günü kimi qeyd edirik. Lakin bu gün Azərbaycan 24 il əvvəlki Azərbaycan deyil! Ümummilli lider Heydər Əliyev tərəfindən əsası qoyulan dövlətçilik yolunun cənab Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi, Azərbaycanın günü-gündən həm siyasi, həm iqtisadi, həm sosial, həm də hərbi cəhətdən sürətli inkişafı bir şeyi əminliklə söyləməyə əsas verir: Xocalıda soyqırımına məruz qalmış insanların xatirəsinin elə Xocalıda qoyulacaq abidə ilə əbədiləşdiriləcəyi gün uzaqda deyil!

**Kərəm HƏSƏNOV**

## Xocalı soyqırımı bəşəriyyətə qarşı cinayətdir

***Yeni Azərbaycan Partiyası Şərur Rayon Təşkilatı Qadınlar Şurası Xocalı faciəsinin 24-cü ildönümü ilə əlaqədar anım tədbiri keçirmişdir. Əvvəlcə faciə qurbanlarının xatirəsi yad edilmişdir.***

Tədbiri giriş sözü ilə YAP Şərur Rayon Təşkilatının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Əmir Babayev açmışdır. Bildirilmişdir ki, Azərbaycan xalqının şüuruna dərin iz salaraq onu daim mübarizə ruhunda kökləyən elə faciəli hadisələr var ki, onlar heç zaman qan yaddaşımızdan silinməyəcəkdir. Erməni faşizminin xisləti, gerçək mahiyyətini açan Xocalı soyqırımı da belə dəhşətli hadisələrdəndir. 1992-ci il fevralın 25-dən 26-na keçən gecə baş vermiş Xocalı faciəsi təkcə Azərbaycan xalqına deyil, bütün insanlığa, bəşəriyyətə qarşı yönəlmiş ən ağır cinayətlərdəndir. Xocalı qətliamı, əslində, yüz illərdən bəri ermənilərin öz havadarlarının dəstəyi ilə azərbaycanlılara qarşı yürütdüyü etnik təmizləmə siyasətinin məntiqi davamı idi.

YAP Şərur Rayon Təşkilatı Qadınlar Şurasının sədri, Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı Yeganə Məmmədova çıxış edərək demişdir ki, Xocalı soyqırımı bəşər tarixinin ən dəhşətli faciələrindəndir.

Vurğulanmışdır ki, ovaxtkı respublika rəhbərliyi faciənin baş verməsinin mümkünlüyü barədə ətraflı məlumatlı olduğu halda, soyqırımının qarşısını almaq üçün heç bir tədbir görməmişdir. Öz vətəndaşlarının təhlükəsizliyini və müdafiəsini təmin etməyə borclu olan hakimiyyət orqanları tam fəaliyyətsizlik nümayiş etdirərək müharibə şəraitində olan şəhərin və onun sakinlərinin xilasına çalışmamış, qanlı faciəni dünya ictimaiyyətinə çatdırmağa səy göstərməmişlər.

Xocalı faciəsinə ilk siyasi-hüquqi qiymətin məhz ulu öndər Heydər Əliyev tərəfindən verildiyini qeyd edən Yeganə Məmmədova ölkə Prezidenti İlham Əliyevin bu yöndəki səmərəli fəaliyyətindən ətraflı bəhs etmişdir.

Tədbirdə dövlət başçısının Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılmasını səfirliklərimiz və diaspor təşkilatlarımız qarşısında vacib məsələ kimi müəyyənləşdirdiyi bildirilmiş, bu istiqamətdə Heydər Əliyev Fondunun da xidmətləri qeyd olunmuşdur.

Gümüşlü kənd tam orta məktəbinin müəllimi Fatimə Seyidova, partiya fəalı Aynur İbrahimova bildirmişlər ki, bu gün hər bir azərbaycanlı bugünkü və gələcək nəsillərə tarixi həqiqətləri olduğu kimi çatdırmalı, onlarda milli yaddaş formalaşdırılmalı, bütün yeniyetmə və gənclər öz milli taleyini, tarixini yaxşı bilməlidirlər. Əminliklə vurğulanmışdır ki, yaxın gələcəkdə bütün dünyada Xocalı faciəsi soyqırımı aktı kimi tanınacaq, BMT və digər beynəlxalq qurumların Azərbaycanın ərazi bütövlüyünün təmin olunmasına dair qəbul etdikləri qərar və qətnamələr qeyd-şərtsiz yerinə yetiriləcək, güclü Azərbaycan ordusu torpaqlarımızı işğaldan azad edəcəkdir. Bu həm də şəhidlərimizin ruhu qarşısında vətəndaşlıq borcumuzdur.

**Elman MƏMMƏDOV**

## Bəşəri faciə sənətkarların gözü ilə

***Naxçıvan Dövlət Universitetində Xocalı soyqırımının 24-cü ildönümünə həsr edilmiş tədbir keçirilib. Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatı ilə birgə keçirilən tədbirdən öncə ali məktəbin Təsviri incəsənət müəllimliyi ixtisasının müəllim və tələbələrinin əl işlərindən ibarət Xocalı soyqırımına həsr olunmuş rəsm sərgisinin açılışı olub.***

Ali məktəbin rektoru, AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov əsrlər boyu xalqın başına gətirilən soyqırımı və qətliamların, Azərbaycan xalqının öz azadlığı və ərazi bütövlüyü uğrunda apardığı şərəfli mübarizənin, qəhrəmanlıq tariximizin təsviri sənətdə inikas olunmasının əhəmiyyətindən danışıb.

Qeyd olunub ki, sərgidə müxtəlif üslub və janrlarda nümayiş olunan əsərlər müəlliflərin milli qürur, vətənpərvərlik hisslərindən yoğrulmuş, gələcək nəslə Vətən sevgisi, tarixi keçmişimizə, şəhidlərimizə hörmət və ehtiram aşılayan dəyərli sənət nümunələridir.

Sonra sərgi ilə tanışlıq olub.

Müəllimlərdən Fəridə Əhmədova və Şəmsiyyə Zalovanın, tələbələrdən Aynur İmanova, Zeynəb Məmmədova, Nuray Cavadova, Tünzalə Orucova, Güllü Məmmədova, Araz Həsənzadə və digərlərinin karikatura, plakat, kompozisiya janrlarında çəkdikləri əsərlərdə Vətən sevgisi, düşmənə nifrət və qisas hissi, müharibə və qətliama qarşı kəskin etiraz öz əksini tapıb.

AMEA-nın müxbir üzvü Saleh Məhərrəmov Bəstəkarlar Təşkilatı ilə birgə təşkil olunmuş tədbirdə çıxış edərək faciənin səbəbləri, siyasi məqsədi və günahkarları, bu soyqırımın beynəlxalq miqyasda tanıdılması məqsədilə görülən işlər haqqında danışıb. Qeyd olunub ki, 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı dəstələrinin keçmiş SSRİ-nin 366-cı motoatıcı hərbi alayının köməyi ilə silahsız və köməksiz Xocalı şəhərinə hücumu nəticəsində qədim Xocalı yerlə yeksan edilib.

Universitetin müəllimi, sənətşünaslıq üzrə fəlsəfə doktoru, Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının məsul katibi Günay Məmmədova qeyd edib ki, bəşər tarixində misligörünməmiş dəhşətli faciə olan Xocalı soyqırımına bütün ziyalılar, sənət adamları biganə qala bilməyib, görkəmli Azərbaycan bəstəkarları, tanınmış fransız bəstəkarı Pyer Tiloy bu mövzuda irihəcmli əsərlər yaradıblar. Bəstəkar Kamal Əhmədovun 2013-cü ildə böyük simfonik orkestr üçün yazdığı "Xocalı" simfoniyası birhissəli olmasına baxmayaraq, silsiləli simfoniya janrının səciyyəvi xüsusiyyətlərini özündə əks etdirir.

Simfoniyanın müəllifi, Bəstəkarlıq kafedrasının müdiri, Naxçıvan Muxtar Respublikasının Əməkdar incəsənət xadimi Kamal Əhmədov əsər haqqında məlumat verib.

Kompüter səsləndirilməsi, müxtəlif tarixi kadrların, mövzu ilə bağlı bədii filmlərdən seçilən fraqmentlərin müşayiəti ilə təqdim olunan simfoniya faciənin bütün dəhşətləri, xronikası ilə yanaşı, müstəqil Azərbaycanın hərbi qüdrətini, iradə əzmini, yenilməzliyini də özündə təcəssüm etdirir.

**Mehriban SULTAN**

## *"Qan yaddaşımız Xocalı"* adlı rəsm sərgisi





***Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin Bəhruz Kəngərli adına Sərgi Salonunda Xocalı soyqırımına həsr edilmiş "Qan yaddaşımız Xocalı" adlı rəsm sərgisi açılıb. Sərgidə əksəriyyəti gənclərdən ibarət olan 19 rəssamın 29 əsəri nümayiş etdirilir.***

Açılış mərasimində əvvəlcə Xocalı faciəsinin qurbanlarının xatirəsi bir dəqiqəlik sükutla yad olunub.

Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin sədri, Azərbaycan Respublikasının Əməkdar rəssamı Ülviyyə Həmzəyeva çıxış edərək bildirib ki, Xocalı soyqırımı insanlığa qarşı törədilmiş hərbi cinayətdir. Azərbaycan xalqı, bütün mütərəqqi bəşəriyyət bu amansız qətliamı heç zaman unutmayacaq. Xocalıda törədilən soyqırımı nəticəsində 613 nəfər öldürülüb. Onlardan 63-ü uşaq, 106-sı qadın, 70-i isə qocalar idi. Bu faciənin bədii ədəbiyyat, kinofilmlər, musiqi və rəsm əsərlərində əks olunaraq gələcək nəsillərə, eyni zamanda dünya ictimaiyyətinə çatdırılması istiqamətində ardıcıl iş aparılır.

Tədbirdə sənətşünas Nizami Alıyevin və Naxçıvan Muxtar Respublikası Rəssamlar Birliyinin üzvü Eldar Zeynalovun da çıxışları olub.

Bildirilib ki, Xocalı həqiqətlərinin dünya ictimaiyyətinin diqqətinə çatdırılması hər bir azərbaycanlının mənəvi borcudur. Heydər Əliyev Fondunun vitse-prezidenti Leyla Əliyevanın təşəbbüsü ilə aparılan "Xocalıya ədalət!" beynəlxalq kampaniyası çərçivəsində dünyanın bir çox ölkələrində müxtəlif tədbirlər keçirilir və ermənilərin törətdikləri bu soyqırımı haqqında ictimaiyyətə obyektiv məlumatlar çatdırılır.

Sonra sərgiyə baxış olub.

Qeyd edək ki, sərgi fevralın 27-dək davam edəcək.

**Xəbərlər şöbəsi**

# Cəlil Məmmədquluzadənin anadan olmasının 147-ci ildönümü qeyd edilmişdir



*Anadan olmasının 147-ci ildönümü münasibətilə qüdrətli dramaturq, yazıçı və publisist Cəlil Məmmədquluzadənin ev-muzeyində tədbir keçirilmişdir.*

Tədbiri giriş sözü ilə açan Naxçıvan Muxtar Respublikasının mədəniyyət və turizm naziri Natəvan Qədimova bildirmişdir ki, "Molla Nəsrəddin" məktəbinin banisi, ictimai xadim, böyük vətəndaş Cəlil Məmmədquluzadənin anadan olmasından 147 il ötür. Bu böyük şəxsiyyət Azərbaycanın milli istiqlalı uğrunda mübarizənin ön cərgəsində durmaqla bizim müasirimiz olmuş və bundan sonra da olacaqdır. Cəlil Məmmədquluzadənin əbədiyaşar zəngin irsi dünən, bu gün və gələcək nəsillər üçün müstəqillik, Azərbaycançılıq, millilik və vətəndaşlıq nümunəsidir.

Qeyd olunmuşdur ki, Bakıda 1994-cü il dekabrın 18-də Cəlil Məmmədquluzadənin anadan olmasının 125 illiyi ərəfəsində ev-muzeyi açılmışdır. Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyev muzeyin açılışında iştirak etmiş və nitq söyləmişdir. Ulu öndərin 1998-ci il 19 iyun tarixli digər bir Sərəncamına əsasən, Naxçıvan şəhərində də Cəlil Məmmədquluzadənin ev-muzeyi yaradılmış, 1999-cu il oktyabrın 13-də muzeyin açılışı olmuşdur. Böyük yazıçının vaxtilə müəllimlik etdiyi Nehrəmdə və Cəlilkənddə ədibin xatirə muzeyləri yaradılmış, Naxçıvan Muxtar Respublikası Ədəbiyyat Muzeyinə və Naxçıvan Dövlət Musiqili Dram Teatrına Cəlil Məmmədquluzadənin adı verilmişdir.

Tədbirdə ev-muzeyinin direktoru Aytən Ələkbərova "Cəlil Məmmədquluzadənin həyatı", Naxçıvan Dövlət Universitetinin Tarix-filologiya fakültəsinin dekanı, filologiya üzrə fəlsəfə doktoru, dosent İman Cəfərli "Cəlil Məmmədquluzadə və dünya ədəbiyyatı" mövzularında çıxış etmişlər.

Görkəmli ədibin tədqiqatçılarından olan AMEA Naxçıvan Bölməsinin əməkdaşı Ramiz Qasımovun da çıxışı olmuşdur.

Sonda Naxçıvan Musiqi Kolleci tələbələrinin hazırladığı "İntelligentlər" əsərindən bir səhnə göstərilmiş və Cəlil Məmmədquluzadənin ev-muzeyinin ekspozisiyasına baxış olmuşdur.

**Nərgiz İSMAYILOVA**

# Muzeydə açıq dərs

***Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyində Naxçıvan Dövlət Universitetinin Muzeyşünaslıq, arxiv işi və abidələrin qorunması ixtisası üzrə təhsil alan tələbələr üçün açıq dərs keçilib.***

Açıq dərsdən əvvəl Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyi Aparatının şöbə müdiri Həsən Kərimov çıxış edərək bildirib ki, muzeylər xalqımızın maddi-mənəvi dəyərlərini toplayan, qoruyan və təbliğ edən mədəniyyət müəssisələridir. Ölkəmizdə muzey işinin təşəkkül tapması və inkişafı müstəqil Azərbaycanın qurucusu və memarı Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli liderimizin rəhbərliyi dövründə respublikamızın bütün bölgələrində yeni muzeylər yaradılıb.

Muxtar respublikamızda da muzey şəbəkələrinin genişləndirilməsinə böyük qayğı göstərilir. Hazırda qədim diyarımızda 29 müxtəlifprofilli muzey fəaliyyət göstərir.

Qeyd edilib ki, muzeylərdə açıq dərslərin keçilməsi bu sahədə təhsil alan tələbələrin muzey işini əyani mənimsəməsinə xidmət edir, onların belə mədəniyyət müəssisələrinin fəaliyyəti və ekspozisiyası ilə yaxından tanış olmasına şərait yaradır.

Sonra Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyinin baş fond mühafizi Züleyxa Cəfərova "Ordubad Rayon Tarix-Diyarşünaslıq Muzeyində işin təşkili" mövzusunda açıq dərs keçib, tələbələri maraqlandıran suallara cavab verib.

Tələbələr muzeyin ekspozisiyası ilə tanış olduqdan sonra Ordubad şəhərində fəaliyyət göstərən digər muzeyləri də ziyarət ediblər.

# "Cavad xan" filmi nümayiş etdirilib



*Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində Naxçıvan Muxtar Respublikası Mədəniyyət və Turizm Nazirliyinin təşkilatçılığı ilə keçirilən "Azərbaycan kinosu günü"ndə "Cavad xan" filmi nümayiş etdirilib. Sabir Rüstəmxanlının "Ölüm zirvəsi" romanının motivləri əsasında 2007-ci ildə çəkilən film 2009-cu ildə ekrana çıxıb.*

Filmdəki hadisələr XIX əsrin əvvəllərində Gəncə xanlığında baş verir. Gəncə xanı Cavad xan öz oğulları ilə birlikdə Vətən uğrunda rus qoşunlarına başçılıq edən Sisianova qarşı mübarizə aparır. Tanınmış rejissor Rövşən Almuradlının çəkdiyi bu filmdə əsas rollarda Azərbaycan Respublikasının Xalq artistləri Nurəddin Mehdixanlı (Cavad xan), Ramiz Novruz (Sisianov) rol alıblar.

Film müstəqillik illərində çəkilmiş ilk tarixi bədii filmlərdən biri hesab olunur.

**Əli RZAYEV**

# Beynəlxalq Ana Dili Günü münasibətilə şeir müsabiqəsi keçirilib

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin və Təhsil Nazirliyinin birgə təşkilatçılığı ilə 21 fevral – Beynəlxalq Ana Dili Günü münasibətilə "Dilim zəngin xəzinəmdir" mövzusunda V muxtar respublika şeir müsabiqəsi keçirilib.***

Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin şöbə müdiri Sahir Rüstəmov, Təhsil Nazirliyinin əməkdaşı Elxan Babayev, Azərbaycan Yazıçılar Birliyinin üzvü Elxan Yurdoğlu çıxış edərək bu günün qeyd edilməsinin əhəmiyyətindən danışıblar. Bildirilib ki, Azərbaycan dilinin inkişafı sahəsində atılan ən mühüm addım ümummilli liderimiz Heydər Əliyevin qətiyyəti sayəsində 1978-ci ildə ölkənin Əsas Qanununda Azərbaycan dilinin dövlət dili kimi təsbiti idi. Xalqımızın əsas milli dəyərlərindən biri olan ana dilinin sonrakı dövrlərdə də qorunması və inkişaf etdirilməsi istiqamətində bir sıra tədbirlər görülüb, qanunvericilik bazası möhkəmləndirilib. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan dilində latın qrafikası ilə kütləvi nəşrlərin həyata keçirilməsi haqqında" 2004-cü il 12 yanvar tarixli Sərəncamı və bu istiqamətdə görülən digər işlər dilimizin inkişafına böyük qayğının təzahürüdür.

Vurğulanıb ki, muxtar respublikamızda da ən ali milli dəyərimiz olan Azərbaycan dilinin saflığının qorunması, dilimizin imkanlarının təbliği istiqamətində məqsədyönlü tədbirlər görülür. Naxçıvan şəhərində "Ana dili" abidəsinin ucaldılması doğma Azərbaycan dilimizə hörmət və ehtiramın ən ali yanaşmasıdır. Hər bir yeniyetmə və gənc bu abidənin yanından keçəndə, sözsüz ki, ayaq saxlayıb ana dilimizin ucalığını, müqəddəsliyini düşünür və onu qorumağı özünə mənəvi borc bilir.

"Dilim zəngin xəzinəmdir" mövzusunda V muxtar respublika şeir müsabiqəsində 11 şagird və kursant şeir qiraət edib. Müsabiqədə Şərur rayon Püsyan kənd tam orta məktəbinin şagirdi Əli Sadiqov I yerin qalibi olub. Heydər Əliyev adına Hərbi Liseyin kursantı Murad Hacıyev və Naxçıvan şəhər 17 nömrəli tam orta məktəbin şagirdi Əhməd Əhmədli II yerə, Şahbuz şəhər 1 nömrəli tam orta məktəbin şagirdi Qızbəsti Quliyeva, Naxçıvan Qızlar Liseyinin şagirdi Gülay Novruzova və Culfa rayon Dizə kənd tam orta məktəbinin şagirdi Nərminə Həsənova III yerə layiq görülüblər.



Sonda qaliblər və həvəsləndirici yerlərə layiq görülənlər təşkilatçılar tərəfindən diplom və hədiyyələrlə mükafatlandırılıblar.

***Naxçıvan Muxtar Respublikası Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin mətbuat xidməti***

*Xalq təqvimi*

# Su çərşənbəsi

***Xalq təqviminə görə, kiçik çillə fevral ayının 19-u öz ömrünü başa vurub yerini boz aya verir. Boz ay xalq arasında həm də "alaçalpov", "çillə beçə", "ağlar-gülər", "cəmlələr" və sair adlarla tanınır. "Boz ay" kiçik çillənin qurtardığı vaxtdan yazın ilk gününə (martın 21-i) qədər olan dövrü əhatə edir. Ayın bu cür adlanması onun buludlu, yağışlı, küləkli, bəzən günəşli, bir sözlə, dəyişkən olması ilə bağlıdır.***



Xalq arasında boz ay haqqında bir deyim var: "Boz ay bozara-bozara keçər". Bu, daha çox boz ayın sərtliyi və havaların bozarmasına işarədir. Kiçik çillə ilə Novruz arasındakı "boz ay" qışdan yaza keçid dövrünü əks etdirir. Xalq arasında boz aya "bayram ayı" da deyilir. Ordubad bölgəsində bu ay həm də "aftabovut" adlanır ki, mənası da Günəşin düşməsi, Günəş anlamına gəlir. Müxtəlif adlarla bilinən boz ayın dörd çərşənbəsi çillə çıxartmanı əhatə edir. Boz ayın dörd çərşənbəsi müqəddəs sayılmış və təbiətin dəyişməsində dörd ünsür: su, od, torpaq və yel mühüm rol oynamışdır. Tədqiqatçılar dörd çərşənbənin ilk üçünün "doğru üskü", sonuncusunun isə "ilin axır çərşənbəsi" olduğunu qeyd edirlər. Xalq arasında olan məlumatlara söykənərək demək olar ki, son dövrlərə qədər axır çərşənbə istisna olmaqla, digər çərşənbələr qeyd edilməmişdir. Sadəcə olaraq Ordubad bölgəsində od yandırardılar. Xalq boz ayın dörd çərşənbəsinin hər biri ilə bağlı müxtəlif ayin, etiqad, inanc və mərasimlər yaratmışdır. Boz ayın ilk müqəddəs çərşənbəsi xalq arasında "əzəl çərşənbə", "gözəl çərşənbə", "yalançı çərşənbə" kimi tanınan su çərşənbəsidir. Qarapapaq türklərində də bu çərşənbəyə "yalançı çərşənbə" deyilir. Xalq bu çərşənbədə baş verəcək dəyişikliklərə inanmamış, onun üçün də onu yalançı adlandırmışdır.

İnanca görə, yazın nəfəsi öncə suya toxunur. Xalq arasında deyilir ki, bu gündən sulara ixtiyar verilir. Buna görə də bu çərşənbə suyun təzələnməsi ilə əlaqədardır. Həmin çərşənbədə su oyanır, saflaşır, təzələnir. Elə ki cəmrə suya düşdü, sular coşmağa, qızmağa, dəyişməyə başlayır. İnanca görə, bundan sonra quyuların suyu çoxalmağa başlayır, suların donuşluğu aradan qalxır, quyruqdoğduda kəsərdən düşmüş, tərkibi dəyişilmiş mineral sular (şor sular) müalicəvi xüsusiyyətlərini bərpa edir.

Topladığımız etnoqrafik çöl materiallarına söykənərək demək olar ki, su çərşənbəsində su üstə gedərlər, ancaq su gətirməzlər. Su üstə gedib oradan su götürmək adətinə ilin axır çərşənbəsinin səhəri əməl edərlər. Xalq arasında olan inama görə, həmin gün sudan nə istəsən həyata keçər. Bununla əlaqəli bir deyim də vardır:

*Su üstə, Novruz üstə,*
*Bəxtini sudan istə.*

Su çərşənbəsi ərəfəsində su arxları təmizlənər, bulaqların, çeşmələrin gözü açılar, ovdanlar, hovuzlar təmizlənər, bərpa işləri aparılardı.

Bir məsələni də qeyd edək ki, xalqımız ta qədim zamanlardan suya kult kimi baxmış, ona inanmış, ona tapınmışdır. Xalqımızın ən qədim andlarının bəziləri su ilə bağlı olmuşdur. And içəndə belə deyiblər: "Su haqqı", "Axar suya kor baxım", "Bu su üstümdə tapılmasın". Su kultu, su inamı olaraq boğazı gəlmiş uşağa çərşənbə suyu içirdərdilər.

**Asəf ORUCOV**

***AMEA Naxçıvan Bölməsinin əməkdaşı***

*İdman xəbərləri*

# Boksçularımız beynəlxalq turnirdə 7 medal qazanıb

*İran İslam Respublikasının Maku şəhərində keçirilən boks üzrə beynəlxalq turnir başa çatıb. Bu turnirdə Azərbaycanı Naxçıvan Muxtar Respublikası Boks Federasiyasının yetirmələri təmsil ediblər. Turnirdə İran və Türkiyə komandaları da mübarizə aparıblar.*

Dəri əlcək sahiblərimiz turnirdə uğurlu nəticə əldə etməklə komandamızın aktivinə 7 müxtəlif əyarlı medal yazdırıblar. Boks həvəskarları finalda Naxçıvan idmançılarının görüşünü maraqla izləyiblər. Belə ki, 64 kiloqram çəki dərəcəsinin həlledici qarşılaşmasında Samiq Seyidzadə və Yenisey İmanov üzüzə gəlib. Görüş birincinin qələbəsi ilə yekunlaşıb. Samiq Seyidzadə kimi Arzuman Tağıyev də turniri qızıl medalla başa vurub. O, 60 kiloqram çəki dərəcəsində rəqib tanımayıb. 69 və 75 kiloqram çəki dərəcələrində mübarizə aparan Yuris Allahverdiyev və Şükür Hüseynov yalnız final görüşlərində məğlub olaraq turnirin ikincisi olublar. Arif Babayev (56 kiloqram) və Ayxan İsayev (81 kiloqram) isə bürünc mükafat qazanıblar.

Sonda idmançılarımıza diplom, medal, komandamıza isə kubok təqdim olunub.

# İdmançılarımız çempionatdan medallarla qayıdıblar

Bakı İdman Sarayında kikboksinq üzrə keçirilən kişilər arasında XXII Azərbaycan çempionatı və kadetlər arasında ölkə birinciliyinə yekun vurulub. Çempionatın keçirilməsində əsas məqsəd 2016-cı ildə Avropa çempionatı və beynəlxalq turnirlərdə iştirak edəcək milli komandanın tərkibini müəyyənləşdirmək, eyni zamanda cəmiyyətdə vətənpərvərlik ruhunu gücləndirmək, gəncləri pis vərdişlərdən uzaq tutmaqdan ibarət olub. Üç gün davam edən yarışda 30 rayonu və 45 klubu təmsil edən 600-ə yaxın idmançı iştirak edib.

Bu yarışda Naxçıvan Muxtar Respublikası Şərq Döyüşü Sənəti Federasiyasının 6 yetirməsi mübarizə aparıb. Kadetlər arasında ən uğurlu nəticəni 51 kiloqram çəki dərəcəsində Fərman Rzayev əldə edib. Belə ki, o, ölkə birincisi adına layiq görülüb. 67+ kiloqram çəki dərəcəsində isə Adil Süleymanov Azərbaycan birinciliyini bürünc medalla başa vurub.

XXII Azərbaycan çempionatında isə iki idmançımız fəxri kürsünün ən yüksək zirvəsinə qalxıb. 60 kiloqram çəki dərəcəsində Zöhrab Əzimov və 91+ kiloqram çəki dərəcəsində Ağalar Seyidov bütün rəqiblərinə qalib gələrək Azərbaycan çempionu adını qazanıblar. Digər iki idmançımız – 71 kiloqram çəki dərəcəsində Rəhim Əliyev ikinci, 75 kiloqram çəki dərəcəsində Cavidan Rəcəbli isə üçüncü olublar.

Qalib idmançılarımıza təşkilatçılar tərəfindən diplom və medal təqdim edilib.

**Ceyhun MƏMMƏDOV**


ŞƏRQ qapısı

Baş redaktor: TURAL SƏFƏROV

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, "Təbriz" küçəsi, 1.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Kərəm Həsənov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.

Tiraj: 1000. Sifariş № 160